BAKI XƏBƏR

# Uşaq və gənclərin inkişafında KİV maarifçiliyinin dəyişdirici rolu...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Hər bir dövlətin, cəmiyyətin gələcəyini indiki uşaqlar və gənclər müəyyən edir. Bu mənada gənc nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Müstəqillik qazandığı ilk gündən dövlətimiz bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Son illər bu diqqət və qayğı daha da artıb.**

Yeni məktəblərin tikintisi və təmiri, idman infrastrukturunun yenilənməsi, stadionların və olimpiya komplekslərinin inşası və s. buna sübutdur.

Əlbəttə hər bir uşağın və gəncin gələcəkdə layiqli vətəndaş kimi yetişməsində onun mənəvi və fiziki tərbiyəsi ilə yanaşı təhsil də önəmli yer tutur. Digər tərəfdən bunlar bir-biri ilə mütləq uzlaşmalıdır.

Psixoloji, mənəvi və fiziki cəhətdən hər bir uşağın sağlam böyüməsi birinci ailədən başlayır. Valideynin övladına düzgün tərbiyə verməsi, onun sağlamlığının qeydinə qalması, düzgün yönləndirməsi vacib amillərdəndir. Bu mənada ilk növbədə hər bir valideyn məsuliyəti dərk etməlidir. Təbii ki, hər bir uşaq ilk növbədə ata-anasını ən ideal insan sayır. Daha sonra təhsil aldığı müəssisə və idmanla məşğul olduğu cəmiyyət və ya klub gənc nəslin düzgün istiqamətləndirilməsində mühüm rol oynayır.

Valideynlərlə olduğu kimi müəllimlər də uşaq və gənclərin düzgün tərbiyə almalarına, gələcəkdə cəmiyyətə sağlam düşüncəli vətəndaş kimi inteqrasiya olunmalarına, onların şəxsiyyətlərinin formalaşmasına, milli ruhda böyümələrinə, təhsilə məsuliyyətlə yanaşmalarına birbaşa cavabdehlik daşımalıdırlar. Sevindirici haldır ki, son illər sadalananlarla bağlı bir çox irəliləyişlər müşahidə olunur. Təhsil sistemində aparılan uğurlu islahatlar, ölkəmizdə olimpiya hərəkatının geniş vüsət alması bunu deməyə əsas verir.

### Gənclər bütün bu layihələri sosial və ənənəvi medianın köməyi ilə reallaşdırırdı

Uşaq və gənclərin fiziki və mənəvi inkişafında medianın rolu da əvəssizdir. Çünki aparılan düzgün və məqsədyönlü təbliğat gənclərin tərbiyyəsində mühüm rol oynayır.



Ölkəmizdə çoxlu sayda fəal gənclər təşkilatı var ki, onların həyata keçirdiyi müəyyən layihələr də bu məqsədə xidmət edir. Bu layihələr vasitəsilə gənclər təşkilatları bütövlükdə vətəndaşların sosial fəallığının artırılmasına nail olurlar. Buna nümunə kimi pandemiya dövründə həyata keçirilən layihələri göstərə bilərik. Koronavirusdan qorunmaq, karantin qaydalarına əməl etmək, ahıl insanlara, aztəminatlı ailələrə dəstək və s. bağlı atılan addımlar, gerçəkləşən layihələr sosial baxımdan vətəndaşların fəallığını artırıb. Bütövlükdə isə vətəndaşların sosial fəallığının artması cəmiyyətimizin inkişafına xidmət edir. Gənclər bütün bu layihələri sosial və ənənəvi medianın köməyi ilə reallaşdırırdı.

### Bu istiqamətdə medianın üzərinə böyük rol və məsuliyyət düşür

44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan gənclərində torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu ortaya qoydu. Gənclərimiz həm döyüş meydanında, həm də kompüter arxasında informasiya müharibəsində vətənpərvərlik hisslərini nümayiş etdirdilər. Dövlətimizin başçısı İlham Əliyevin "İrəli, Azərbaycan əsgəri!" çağırışına cavab verən gənclərimiz böyük ruh yüksəkliyi ilə silaha sarılaraq torpaqlarımızı işğaldan azad etdi, üçrəngli bayrağmızı dalğalandırdılar. Azərbaycan əsgəri yazdığı yeni tarixlə xalqımızın qürurunu özünə qaytardı. Azərbaycan gənci tariximizi yaxşı bilməlidir. 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinə yeni bir səhifəni- Zəfər Gününü yazdı. Hələ müharibəni şərtləndirən amillər, Azərbaycanın hərb təcrübəsi ilə bağlı kitablar yazılacaq, bu tarix dərsliklərdə xüsusi yer alacaq, gələcək nəsil bu tariximizlə qürur duyaraq artıq torpaqlarımızın işğalı deyil, işğaldan azad olunduğu günü qeyd edəcəklər. Azərbaycan zəngin tarixi, mədəniyyəti ilə hər zaman diqqət mərkəzində olub. Bu günün əsas tələbi məhz gəncləri keçmişi öyrənmələri fonunda gələcəyə inamla irəliləmələrini təbliğ etməkdir. Bu istiqamətdə medianın üzərinə böyük rol və məsuliyyət düşür.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**